# NOVRUZ BAYRAMININ QƏDİM QAYNAQLARI



**Novruz xalqımızın ən qədim bayramlarından biridir. Elimizdə bu qədim bayramın qədim kökləri və mənşəyi haqqında bir xeyli materiallar var. Lakin bu materiallarda onun qədim kökləri və mənşəyi barədə olan məlumatlar da ayrılıqda öz müxtəlifliyi ilə fərqlənir. Belə ki, yazılı mənbələrdə "Novruz bayramı" adı altında verilən məlumatlarda bu bayramın tarixi X əsrdən uzağa getmir.**

Halbuki, bu qədim bayramın yaşı X əsrdən xeyli əvvələ gedib çıxır. Bu bayram X əsrə qədər bir çox dəyişikliyə məruz qalmış, onun adı belə iki dəfə dəyişdirilmişdir. "Əcdad bayramından bahar və əkinçilik bayramınadək uzun bir yol keçmiş bu qədim Turan bayramı Yaxın və Orta Şərq xalqları arasında əsasən zərdüştlük dini vasitəsilə yayılmışdır". E. ə.VI əsrdə yaşayan Zərdüştün özü mənşəcə turanlı olmuşdur. O, öz dininin ilkin əsaslarını demək olar ki, Turanda yaratmışdır. Digər başqa peyğəmbərlər kimi Zərdüştün də dini təlimi öz həmvətənləri tərəfindən qəbul olunmamışdır. Çünki həmvətənlərinə görə o, əcdadlarının adət-ənənələrinə qarşı çıxmışdır.

Məhz bu səbəbdən də Zərdüşt öz vətənindən qovulmuşdur. O, vətənindən qovulduqdan sonra düz on il vətənindən uzaqlarda sərgərdan bir həyat yaşamış, sonra isə Parfiyaya gələrək özünə hami tapmışdır ki, bu hami də, Əhəmənilərin canişini olan Viştaspan ( I Daranın atası) idi. Belə ki, bu hami, yəni Viştaspan onun dinini qəbul etmiş və beləliklə, Parfiyada bu din qəbul olunmuşdur. Bundan sonra, yəni e. ə. 522-ci ildə Parfiyada I Dara hakim olduqdan sonra, Zərdüştün dini təlimi demək olar ki, bütünlükdə İranda yayılmışdır. Bu Zərdüştün ən böyük arzusu idi ki, baş tuturdu, çünki onun ən böyük arzusu da elə bu idi, yəni öz təlimini öz vətənində yaymaq. O, hətta vətənindən kənarda yaşadığı vaxtlarda belə bu arzu ilə yaşamışdır. Bunun qarşısını almaq məqsədi ilə turanlılar onu öldürmək üçün Parfiyaya adam göndərmişdilər. Zərdüst 77 yaşında Bəlx şəhərində həmin adamlar tərəfindən ibadət zamanı öldürülmüşdü.

Zərdüşt öz təlimini Turan reallıqları əsasında yaratmışdı və məqsədi "Turan adət-ənənələri və inancları içərisində islahat keçirməyə, bir çox zərərli ənənələri, o cümlədən, azyaşlı uşaqların qurban kəsilməsini tələb edən "yalançı allahları" ləğv etməyə və onların əvəzinə mərhəmətli Ahura Məzdaya inam yaratmağa çalışırdı. Başqa sözlə, o, təkallahlığı təbliğ edirdi. Ancaq bunu tam şəkildə həyata keçirmək ona hətta Viştaspanın ölkəsində də nəsib olmadı; o, Ahura Məzdanı baş Allah, bir neçə yerli bütpərəstlik Allahını isə "ruh" adı ilə onun köməkçisi elan etməklə kifayətlənməyə məcbur oldu".

Onu da qeyd edək ki, Zərdüşt hələ Turanda öz dinini təbliğ etməyə başlayarkən, həmvətənlərini bu dinə inandırmaq üçün bildirmişdi ki, peyğəmbərlik ona məhz turanlıların öz sevimli bayramı olan Tura, yəni "əcdad bayramı" mərasimində iştirak edərkən verilmişdir. Belə ki, 30 yaşlı Zərdüşt sübh zamanı xaoma hazırlamaq üçün su dalınca çaya getmiş, orada suya girib su götürən zaman Vohu-Mana ona yaxınlaşıb onu Ahura Məzdanın yanına aparmış və elə orada da Zərdüstə peyğəmbərlik verilmişdir.

Turanlıların təqvimində ilin birinci ayı əcdadları Turun adını daşıyırdı ki, bu da "Avesta"da və digər mənbələrdə də belədir, yəni Tura adlanır. Tura martın ortalarından aprelin ortalarına qədər olan müddəti əhatə edirdi. Belə ki, Turan təqvimində il iki fəslə bölünürdü; yay və qış. Tura-əcdad bayramı yay mövsümünün əvvəllərinə düşürdü və bu bayram xüsusi hazırlıq tələb edirdi. Bu bayramı indi də Turan xalqlarından olmuş süvarların varisi hesab edilən çuvaşlar yüksək səviyyədə keçirirlər və "çuvaşların bayramları sırasında Günəşə, Tura Allahına və əcdadlarına qurbankəsmə bayramı xüsusi yer tutur". Maraqlıdır ki, onlar da bu bayramı mart ayında keçirirlər və bu bayram bir neçə gün davam edir, eyni ilə bizdə olan kimi, çuvaş da oda, suya, günəşə və yerə ehtiram edərək, xeyir Allahına və xeyir ruhlara inanırlar.

Bu bayramla, yəni Tura-Novruz bayramı ilə bağlı adət-ənənələr zərdüştlükdən də əvvəl Turanda olmuşdur və bunu təsdiq edən materiallar da mövcuddur.

Belə ki, e. ə. VIII əsrdə Turandan qopub ayrılmış kimmer tayfa birləşmələri daxilində də bu bayram, Tura bayramı kimi qeyd edilir ki, bu da atəşpərəstliklə bağlı olan qədim Turan ənənələrinin olmasını göstərir. Qədim kimmerlərdə də il iki mövsümə bölünürdü və baharda gecə ilə gündüzün bərabərliyi və bu bayramda işıq qüvvələrinin şər qüvvələrə qalib gəldiyinə inanılırdı.

Böyük tonqallar qalanır, "yandırılmış tonqalların üzərindən alov güclü olan zaman kişilər, zəif olan zaman isə qadınlar, tonqal sönüb tüstü verən zaman isə mal-heyvan keçməli idi. Belə hesab edilirdi ki, bu bayram günündə əcdadların ruhları evlərə qayıdır və mələkələr də bu bayramın icrasına daha diqqətlə fikir verirlər. Çoxlu külçə və peçenyelər hazırlanır və malheyvan kəsilirdi. Kütləvi gəzintilər, qonaqlıqlar təşkil edilirdi".

Ümumiyyətlə, oda sitayiş kimmer mədəniyyətində mühüm yer tuturdu. Beləliklə, hələ zərdüştlük dini yaranmamışdan da əvvəl, Turan aləmindən ayrılmış kimmerlərin mifologiyasında da "işıq oğulları və zülmət bədheybətləri arasındakı böyük müharibələr", "gündüz, işıq, həyat, bərəkət, müdriklik və xeyir tanrıları ilə gecə, qaranlıq, ölüm, qıtlıq mübarizəsi"nin təsviri bir daha bunu aydınlaşdırır ki, zərdüştlük dininin əsasında dayanan bu dualist ideyalar və prinsiplər Zərdüştdən qabaq da mövcud idi.

Hələ Zərdüştün dövründəTuran xalqlarının bəziləri ilin ilk ayını "Tura", bəziləri isə "Turan" adlandırırdılar. Belə ki, vaxtı ilə qədim Turan ərazisində məskunlaşmış bir sıra Sibir xalqlarının, məsələn, evenklərin milli təqvimlərində mart ayının ortalarından aprelin ortalarına qədərki vaxta indi də Turan ayı deyirlər.

Zərdüştün ölümündən xeyli sonralar, Əhəmənilər dövründə İranda hazırlanmış Zərdüstlük təqvimində ilin ilk ayı "Fravaşi", yəni "Əcdad ayı" adlandırılmışdır. Bunu filologiya elmləri doktoru K.Allahyarov belə səciyyələndirir: "Çox güman ki, bu dəyişiklik Turun və yaxud Turanın zərdüstlük dininin düşməni sayılan turanlıların əcdadı olması ilə bağlı olmuş və deməli siyasi-ideoloji səciyyə daşımışdır".

Zərdüştlük təqvimində hər ay 30 gündən ibarət idi. Hər ilin sonunda ona beş gün də əlavə olunurdu. Bu təqvim, demək olar ki, Sasanilər dövründə də saxlanılırdı. Hal-hazırda bu aya İranda "Fərvərdin ayı" deyirlər. Sasanilər dövründə bu, Zərdüştə peyğəmbərlik verilməsi günü və bununla bağlı yeni ilin başlanğıcı kimi qeyd edilirdi.

Yalnız İslam dininin qəbulundan sonra bu bayrama bütpərəstlik dininin qalığı kimi müsəlman ruhaniləri tərəfindən qadağalar qoyuldu və bundan sonra xalq ən çox sevdiyi bayramına müsəlman hakimlərinin hədələrindən yayınmaq məqsədiylə "Novruz"- "Yeni gün"adı verdilər. Bundan sonra Tura "Əcdad bayramı" bu ad altında qeyd olunmağa başladı.

Lakin İslam təqvimi Zərdüşt təqvimini sıxışdırsa da, aradan qaldıra bilmədi. Belə ki, xalq içərisində hər iki təqvimdən də istifadə edilməyə başlandı.

Bütün bunlara baxmayaraq zərdüştlük təqvimi ilə təbiət hadisələri arasındakı bəzi uyğunsuzluqlar az da olsa müəyyən çətinliklər yaradırdı ki, məhz buna görə səlcuq sultanı Məlikşah (1055-1092) bu uyğunsuzluqları aradan qaldırmaq üçün məşhur şair, filosof, astronom Ömər Xəyyam başda olmaqla dövrünün astronom və riyaziyyatçılarından ibarət komissiya təşkil etdi.

Bu komissiya dünyada ən dəqiq təqvimlərdən birini düzəltdi ki, bu təqvimə əsasən, baharda gecə ilə gündüzün bərabərləşdiyi günü ( Turan təqvimi ilə I Tura və ya I Turan, zərdüştlük təqvimi ilə I Fravaşi və ya I fərvərdin tarixini), Qriqoryan təqvimi ilə 21 mart tarixinə təyin etdi. Beləliklə, bundan sonra çox qədim tarixə malik olan Tura və ya Turan-"Əcdad bayramı" rəsmi olaraq Novruz adı aldı və xalq öz bayramını məhz bu ad ilə qeyd etməyə başladı.

● **Lütviyyə ƏSGƏRZADƏ,**
*filologiya elmləri namizədi*